

# Qürurla böyüyən şəhid övladı...

**Tariximizin şərəfli səhifəsi olan 44 günlük haqq savaşımızda hünər göstərib müqəddəs şəhidlik zirvəsinə ucalan baş leytenant Vüsal Kazımovun adı hər bir azərbaycanlı üçün əzizdir. Lənkəran rayonunun Nüvədi kəndində boya-başa çatan Vətən sevdalısı mərdlik, qəhrəmanlıq simvoluna çevrilərək milyonların ürəyində özünə yer edib.**

Şəhidimiz 2 qız övladını canından artıq sevdiyi Vətəninə yadigar qoyub. Böyük qızın adı Nuraydır. 4-cü sinfi başa vuran Nuray oxuduğu Lənkəran rayonu, Nüvədi kənd məktəbində hamı tərəfindən sevilir. Şəhid atasının şərəfini yüksək tutmaq üçün yalnız "əla" qiymətlər alır, davranışı, ailədən gələn Vətən sevgisi, gözəl tərbiyəsi ona hörmət gətirir.





Nuray Vüsal qızının 10 yaşı tamam oldu. Əziz gün münasibətilə tanıyanlar, bilənlər, oxuduğu məktəbin şagirdləri, müəllim kollektivi Nurayın təbrikinə gəlmişdi. Müəllimləri bildirdilər ki, məktəbimizin məzunu, igid Vətən oğlu, zəfər şəhidi, baş leytenant Vüsal Kazımovun əmanəti olan Nurayın qürurlu baxışları, gözlərindəki işıq Vətən sevgisinin, mərdliyin, iradənin nümunəsini göstərir. Həmişə bu müqəddəs əmanətə böyük sevgi və məsuliyyətlə yanaşır, şəhidimizin ruhunu dərin ehtiramla yad edirik.

**Z.ORUCOĞLU.**

Respublika .- 2025.- 30 iyul (№ 156). - S.8.